UOT 821.512.162

**Aydın Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent,*
*BDU-nun Mənbəşünaslıq, Tarixşünaslıq və metodika kafedrası*
*Bakı ş., akademik Zahid Xəlilov küç., 23.*
E-mail: aydin.mmmdov.67@ mail.ru

# AZƏRBAYCAN XALQININ SU İLƏ BAĞLI QƏDİM İNANC, ADƏT VƏ MƏRASİMLƏRİNDƏ TARİXİ-DEMOQRAFİK BAXIŞLAR

**Açar sözlər**: *su inancları, qədim adət və mərasimlər, əhali artımı, əhali məskunlaşması, demoqrafik baxışlar.*

Su yaşadığımız planetdə həyatın əsasını təşkil edir. Məhz ona görə də suya hər yerdə rast gəlmək olar. Okean və dənizlərdə olan su planetimizin 75%-ni təşkil edir. Maraqlıdır ki, insan bədəninin də 75%-ni, beynimizin 80%-ni su təşkil edir. Hər bir insan orqanizminin ümumi çəkisinin 8%-ni qan, qandakı plazmanın 90%-ni isə yenə də su təşkil edir. Nəzərə alsaq ki, ürəyimiz bir dəqiqədə 68-80 dəfə, nəbzimiz isə, bir gündə 100 min dəfə döyünərək, bütün orqan və toxumalarımıza qida məhsullarını, oksigeni nəql edən 7 min litr qan vurur, o zaman insan bədənini içərisində dayanmadan gur sellər axan geniş bir aləmə bənzətmək olar.Əslində, su ilə bağlı ən qədim düşüncə sistemimizdə, ayin və mərasimlərimizdə bu zəruri həyat ünsürünün vacibliyini dəyərləndirmək üçün gətirdiyim misallarda fiziki varlığımızın, mövcud olmamızın danılmaz həqiqətləri əks olunmuşdur.

Arxeoloji tədqiqatlar sübut etmişlər ki, ən qədim əcdadlarımız, ulularımız ilk məskənlərini su hövzələrinin, çayların, göllərin sahillərində salmış, ilk əmək alətlərini çay sahilində suların zaman-zaman yuyub forma verdiyi çay daşlarından hazırlamışlar: "Ən qədim zamanlardan insanlar həyat mənbəyi kimi sudan ilham almış və istifadə etmişlər. İlk vaxtlardan çay insanların diqqətini cəlb etmiş, və onlar çay kənarlarında məskən salmışlar. Çaya baxmış, onda olan daşa nəzər salmışlar. Təbii çay daşlarından necə istifadə etmək haqqında fikirləşmişlər." (4.6)

Doğrudan da, suya, çaya yaxın olmaq zərurəti hələ ibtidai cəmiyyətdən üzü bəri insan nəslinin inkişafı və artıb-törəməsi üçün son dərəcə zəruri şərtlərdən biri olub. Əbəs yerə deməmişlər ki, su dirilikdir, həyatdır. Susuz təbiət də, həyat da ola bilməz. Su kimi hamıya, hər bir varlığa lazımdır. Burada məşhur fransız yazıçısı Antuan Sent-Ekzüperinin su haqqında dediklərini xatırlamamaq olmur: "Su! Sənin nə dadın, nə rəngin, nə də qoxun var. Səni təsvir etmək qeyri-mümkündür. Sənin nə olduğunu bilməyərəkdən səndən həzz alırlar. Sənə "həyat üçün lazımsan" demək azdır. Çünki sən həyatın özüsən... Sən dünyanın ən böyük sərvətisən".

Azərbaycan xalqının nəsil artımı ilə bağlı tarixi demoqrafik baxışlarında da su ilə bağlı çoxsaylı inanc və mərasimlər mühüm yer tutur. Xalqımızın ətraf mühit və dünya ilə bağlı inanclar sistemində hər şey axır, hər şey dəyişilir. Təbii ki, hər şey dəyişilir dedikdə, ulu əcdadlarımız insan nəsillərinin törəyərək artmasına, ölənlərin yerinə yenilərinin doğulmasını nəzərdə tuturdu. Başqa sözlə, xalqımızın insan övladının olumu və ölümü ilə bağlı baxışlarında demoqrafik proseslər daima su kimi axan, heç vaxt sükunət halında olmayan dinamik hadisə kimi təsəvvür olunurdu. Su ilə bağlı qədim tapmacada deyilir: "Ay gedir, il gedir, gecə-gündüz yol gedir" (2.202) Əgər bu atalar sözündə suyun zamanın fərqinə varmadan daima axır, yol gedirsə: "Qaya dibindən qaz gedər, qaqqıldaşar yol gedər." tapmacasında isə məkanın, daha doğrusu onun mürəkkəb və ya sadə relyef xüsusiyyətlərindən asılı olmayaraq suyun daima hərəkət etməsindən, axmasından yəni, inkişafda olmasından bəhs edilir. (2.202)

Xalqımızın artım, doğum və ölümlə bağlı demoqrafik prosesləri suyun hərəkəti, axarlılığı ilə müqayisə etməsi həqiqətən də heyrətamizdir.

Dialektikanın banilərindən biri olan Heraklitə görə, cismani bədən ruhun qəbridir, ona görə də, bu dünyanı tərk edən, yəni ölən insan əslində cismani mövcudluğunun ölümündən "ayrılaraq, oyanaraq" ruhların kosmik yenidən doğulma, mövcud olma dövriyyəsinə qovuşur, qoşulur. Bu kosmik dövriyyədə oddan başqa bütün elementlər iştirak edir. Ona görə də, öz ruhunu bu narahat dövretmədən qurtarmaq istəyən hər kəs Heraklitə görə, ailə suyun, "yaş ruhun" təcəlləsi, inikası olduğuna görə, dünyəvi qayğılardan uzaqlaşdırmağa cəhd edən insan hər cür dünyəvi həzlərdən, o cümlədən intim münasibətlərdən çəkinərək, ruhunu oda yaxınlaşdırmalı, onu "quru" etməlidir. (9.117-118)

Təbiəti əbədi dəyişmə prosesində təsvir edən Heraklitə görə, axar su, çay dəyişən zamanın, bir-birini əvəz edən nəsillərin bir növ təbii, obyektiv göstəricisi, təsdiqi və tərənnümüdür. Ona görə də, nəsillərin zaman-zaman yenilənməsi qanunauyğunluğunu heç kəs poza, dəyişə bilməz: "Eyni bir çaya girən adamın üzərinə daim yeni-yeni sular axdığına görə, bir çaya iki dəfə girmək olmaz." (9.118)

Xalqımızın qədim inanclarında da su zamanın, kainatın özü kimi daima yenilənən, özü-özünü, tənzimləyən və təzələnən təbiət ünsürü kimi təsvir edilir. Su təbiətdə və cəmiyyətdə baş verən bütün hadisələrin, proseslərin təkcə şahidi, müşahidəçisi kimi deyil, həm də ən fəal iştirakçısıdır. Qədim inanclara görə axır çərşənbədə təbiətdə hər bir varlıq həyat eşqilə öz mövcudluğunun təsdiqi və tərənnümü üçün yenilənmə, təzələnmə prosedurundan keçməlidir: "Bu gün oğlanlar, qızlar dəstə-dəstə ayrılıqda şənlik etmək üçün hazırlanmış evə gedər, yeyib içər, şadlıq keçirərlər. Qızlar oğlanları, oğlanlar da qızları pusar. Bir-biri ilə zarafat edər, mahnı ilə deyişərdilər. Bu gecə qaravəlli, çömçəbaşı bəzəmə kimi oyunları dönə-dönə təkrar edərlər". (2.252)

Əcdadlarımızın ətraf aləm haqqındakı əski inanclarına görə mövcud olan hər bir təbiət ünsürünün öz əyəsi – hami ruhu, qoruyucusu varmış. Əyələrdən başqa təbiətdə bizdən yeylər adlı varlıqlar da mövcud imiş. Lakin, adi gözlə əyələri və bizdən yeyləri görmək olmur: "Ancaq əyələr ilə bizdən yeylərin arasında fərq var. Bizdən yeylər heç bir şeyin sahibi deyil. Ancaq əyələr nəyin əyəsidirsə, onun da sahibidir, özü də onda yaşayır". (3. 51)

Əski inanclara görə ətraf aləmdə olan qoruyucu hamilər, əyələr sahibi olduğu təbiət ünsürünün bir növ mühafizəçisi və sakini olduğu üçün ondan kənarda mövcud ola bilməz. Misal üçün, bağ əyəsi bağın sahibi olduğuna görə, bağda da yaşayır: "Daha suda və dağda bağ əyəsi ola bilməz. Onların da öz əyəsi var". (3. 51)

Xalqımızın su ilə bağlı inanclarında çox zaman təbiətin bu unikal elementi ilə ruhu, düşüncəsi olan ən vacib varlıq kimi təsəvvür edilir: "Bu əyələrin içində hamısından üstünü su əyəsidi. Səhər-səhər ki, tezdən gedirsən suyun üstünə, gərək su əyəsinə salam verəsən". (3.51-52)

Deməli, əski inanclara görə səhər gərək insanlarla olduğu kimi, su ilə də görüşməli, salamlaşmalı idin. Belə olan təqdirdə, yəni təbii ki, nəzakətli davranış qaydalarına əməl etməli, kobud hərəkətlərə yol vermək olmazdı: "Heç vaxt suya tüpürmək, suya çirkab atmaq olmaz. Yoxsa, su əyəsin küsdürərsən, sənə zəfər toxuyar (yəni xətər yetirər – A.M.). (3.52)

Maraqlıdır ki, su ilə ehtiyatlı, nəzakətli davranış qaydalarına dünyanın bütün xalqlarının inanclarında təsadüf olunur. Məsələn, dünyanın ən böyük 500 qolu olan azman çayı Amazonkanın üstündə insanlar ta qədimlərdən bu günə qədər körpü tikməkdən çəkinirlər. Yeddi min kilometr uzunluğunda uzanan, (təxminən Moskvadan Vladivostokadək olan məsafəyə bərabər uzunluq – A.M.), töküldüyü Atlantik okeanının suyunu 400 km sərinləşdirən bu çayın üzərində bu günədək cəmi bircə körpü çəkilib. İnsanlar inanırlar ki, körpü Amazon çayı ruhu əyəsi Urupayanı qəzəbləndirə bilər, o da gənc, cavan oğlanlara ziyan, xətər yetirib, onları gücdən

salar, ailə, oğul-uşaq sahibi olmaqdan məhrum edər. Bu inancda suyun ailə, nəsil artımına, deməli demoqrafik proseslərə təsiri aşkar sezilməkdədir.

Azərbaycan xalqının su ilə bağlı inanclarında su insanla danışan, onu duyan, arzusunu həyata keçirən, dərdinə şərik olan, halına acıyan ən yaxın mühasib, dost kimi canlandırılır. Azərbaycan mifologiyasında gecə ilə gündüzün bərabərliyi günündə axar çayın (yaxud çayların) bir an dayanıb yenidən axması ilə bağlı fikirlərə rast gəlmək mümkündür: "Novruz bayramına açılacaq gecə, gündüzlə gecə tənyarı olur. Həmin dəqiqədə çay bir an dayanır, yenidən axır. Kim həmin vaxt nə arzu eləsə, dilində hansı sözü desə, o iş hasil olur". (3.57)

Mifoloji mətnlərdə Araz qırağındakı kəndlərdən birində baş verən bu inamla bağlı olaydan bəhs edilir. Belə ki, ilin axır gecəsi, dan ulduzu doğan zaman çay qırağında olan bir təzə gəlin Araz çayının bir anlığa dayanmasını görüncə, tələsik ərinin qızıla çevrilməsini arzulayır. Evə qayıdarkən bayram aşını yemədən qızıla dönən ərinin halına acıyan, gününü ahu-zarla keçirən gəlin, ağlaya-ağlaya "qızıl əri"ni farmaşa bürüyərək yük yerinə qoyur. Sahibsiz qaldığına görə maddi çətinlik keçirən gəlin naəlac qızıl ərinin çeçələ barmağını kəsərək, pula çevirir, növbəti gecə-gündüz bərabərliyinə qədər günlərini birtəhər keçirir. Nəhayət ilin axır gecəsi gəlib çatır. Gəlin lap axşamdan Arazın qırağında oturaraq, gözünü dikir çaya. Dan ulduzu doğan zaman Arazın yenidən bir an dayanmasını görüncə: "Ay su, gedim ki, (yəni evə gedib görüm ki,... – A.M.) ərim yenə çevrilib adam olub". – deyə, arzusunu çaya söyləyir. Evinə qayıdan gəlin yük yerində farmaşın tərpənməsini görüncə xeyli sevinir. Tez farmaşın ağzını açaraq başına gələnləri təfərrüatı ilə ərinə danışır. Onlar uzun illər xoşbəxt həyat yaşayırlar, lakin hər dəfə gəlin ərinin kəsik barmağını görəndə xəcalət çəkir. (3.57-58)

Bu mifoloji mətndə su əslində ailə modelinin qoruyucusu, ailəni hətta ailə üzvlərinin tələsik, düşünülmədən verdikləri səhv qərarlardan hifz edən himayəçi kimi çıxış edir. Su həyat təcrübəsi hələ kifayət qədər çox olmayan təzə gəlinin, nəticəsini düşünmədən, sonluğunu görmədən verdiyi qərarı, arzunu, istəyi yerinə yetirir. Lakin, bütün dünyanı gəzib-dolanan, yerin alt və üst sirlərindən agah olan su müdrikdir, ədalətlidir. Ona görə də, gəlinin peşman olacağını da, əvvəlcədən gözəl bilir, lakin eyni zamanda ailə dəyərlərinin dünyanın heç bir sərvəti, o cümlədən də qızılı, daş-qaşı ilə müqayisəyə gələ bilməyəcəyini təzə gəlinə anlatmaq istəyir. Paklıq, təmizlik, bakirəlik rəmzi olan su hər ilin sonunda özü də təmizləndiyinə görə, gənc qadının – təzə gəlinin günahlarını da yuyur, onu bağışlayır, ərini yenidən ona qaytarır. Beləliklə də, bir ailənin dağılmasının qarşısını alır. Bu minvalla su bir növ müdrik ailə qoruyucusu kimi, mal-dövlət, maddi nemət uğrunda əri ilə yola getməyən digər gəlinləri elə su xəfifliyi ilə məzəmmət edir, onların ailə ilə bağlı düşüncələrinə aydınlıq gətirir. Atanı nəsil artıran ailənin başçısı kimi ön plana çəkir.

Su ailənin qoruyucusu, himayəçisi olduğuna görə, ulu əcdadlarımız insana xas olan bir sıra xüsusiyyətləri də suya şamil etmişlər. Məsələn, su da insan kimi yatırmış: "Bir arvad çərşənbə gecəsi səhərə çox qalmış səhəngi götürüb çaya su dalınca gedir. Səhəngi, nə qədər suya basır, səhəng suya batmır. Sən demə su yatıbmış..." (3.58)

Və yaxud, səhər-səhər su üstünə gedən adam, gərək su əyəsinə onu küsdürməmək üçün salam versin.

Su üstünə gedən adam nəinki, su əyəsinə, hətta haqqında irəlidə söylənilən bizdən yeylərə də salam verməlidir ki, arzuolunmaz hallarla üzləşməsin: "...Gəlib su əyəsinə salam verirsən, əyilirsən su içməyə, (həmin vaxt – A.M.) bizdən yeylərin acığına gəlir ki, niyə su əyəsinə salam verdi, ancaq bizə (salam) vermədi. Ona görə də, sən əyiləndə səni daldan vururlar, ağzın əyilir, gözün kor, özünsə dəli olursan". (3.52)

Bu mifoloji mətndə də suya və onu qoruyan hami qüvvələrə ehtiram son dərəcə emosional tərzdə təsvir edilmişdir. Əslində suya və onu qoruyan qüvvələrə ehtiram ilk növbədə suyun da hava kimi yaşamaq üçün ən zəruri həyat neməti olması zərurətindən irəli gəlirdi. Təsadüfi deyildir ki, el içində hər hansı bir əşyanın və ya şəxsin ifrat dərəcədə zəruri olmasını, vacibliyini

kiməsə bildirmək istəyəndə: "...Mənə hava və su kimi lazımdır". – deyə, söyləyirlər. Belə hir hal insanın suya, su mənbələrinə ağılla, ehtiyatla və qənaətcil bir tərzdə yanaşılmasını da zəruri edir. Zərdüşt təlimində suyu odla az qala eyni sırada qoyaraq ən müqəddəs varlıq sayır, suyun şəninə bir sıra xüsusi dini ayin və mərasimlər icra edirdilər. Bundan başqa, suyu çirkləndirmək ən ağır günah sayılırdı. İnanclara görə, hətta bir damcı suyu belə natəmiz edən, günahını yumayan şəxsin ruhu cənnət qapısından buraxılmadığına görə, cəhənnəmdə onu son dərəcə ağır, sərt cəzalar gözləyirmiş. (10.68)

Zərdüşt təqviminin 8-ci ayı və hər ayın onuncu günü suya həsr olunmuşdu. Suya həsr olunan günlərdə onu "incitmək" ən ağır günah sayılır, həmin günü insanlar suyun xətrinə dəyməmək, onu narahat etməmək üçün, ümumiyyətlə sudan istifadədən imtina edirdilər.

Təbii ki, belə bir yanaşma insanların suyun timsalında bütün yaranışına, ətraf aləmdə mövcud olan hər bir varlığa yüksək ehtiram və sayğısından əmələ gəlirdi.

Bəşər tarixinin qədim çağlarında dünyanın bir çox xalqları suya demək olar ki, müəyyən zahiri, formal fərqləri nəzərə almasaq, mahiyyətcə eyni mövqedən, yüksək ehtiramla yanaşırdılar. Məsələn, Nil çayının hər il yayda ( iyulun 19-da) daşaraq məcrasından çıxması, ətraf yerlərin çay sularının gətirdiyi lillə örtülməsinə səbəb olurdu. Tərkibi bitki çürüntüləri, dağ süxurlarının mineralları ilə zəngin olan bu lil əslində, bol məhsuldarlığa zəmin yaradırdı. Nəticədə, Nilin sahilində qədim dövr tarixinin Misir kimi qüdrətli dövləti meydana gəldi.

Qədim misirlilərin inanclarına görə, bu çayda cərəyan edən hər bir proses, o cümlədən çayın daşması əlindəki bardaqdan çaya su tökən Nil Allahının iradəsindən asılıdır. Misirlilər ona yalvarırdılar ki, tarlaları suvarmaq üçün çaya əlindəki bardaqdan nə çox, nə az, lazım olan qədər su töksün. Qədim misirlilər inanırdılar ki, insanlara həyat verən, yeni-yeni nəsillərin dünyaya gəlməsinə və əhali məskunlaşmasına əlverişli şərait yaradan çayın hami ruhu onların dualarını eşidir. Ona görə də, sularında il boyu gəmilər üzən bu çayın sahilində demoqrafik proseslərin müsbət mənada inkişafı üçün bütün zəruri şərtlər olduğuna görə, sahillərində əhalisi sıx olan çoxlu sayda şəhərlər meydana gəldi. Eyni mənzərə ilə Dəclə və Fərat, Yantsızı və Xuanxe, çaylarının sahillərində yaranan qədim sivilizasiyalar haqqında da söyləyə bilərik.

Arxeoloqlar Hind çayı vadisində b.e.ə. III minillikdə salınmış, sıx əhali məskunlaşması ilə səciyyələnən şəhərlərin qalıqlarını aşkara çıxarmışlar.

Bütün yuxarıda söylənənlər isə çay və digər təbii su obyektlərinin demoqrafik proseslərə ciddi təsir etdiyini faktiki surətdə göstərir.

Qədim yunan əsatirlərinə görə, Uran və Geya adlı tanrıların izdivacından Okean adlı nəhəng-titan və Fetida adlı ilahə dünyaya gəlir. Okean bütün dünyanı ağuşuna alan vahid su sahəsini, Fetida isə yer üzünü mavi tor kimi bürüyən, gecə-gündüz axaraq okean və dənizlərə qovuşan çayları yaradır. (8.3) Milet fəlsəfi məktəbinin banisi Fales belə hesab edirdi ki, kainatda mövcud olan hər bir şey sudan əmələ gəlir və yenə də, suya çevrilirlər. Falesin fikrincə, yer suyun içərisində eynən ağac kimi üzür. (9.682)

Xalqımızın su ilə bağlı qədim inanclarında suyun subay oğlan və qızları bir-birinə qovuşdurmaq xüsusiyyəti də vardır. Belə ki, gənc qızlar axır çərşənbə gecəsində müəyyən bir qabda su götürüb içərisinə üzük salmaqla niyyət tutarlar. Qızlardan biri mahnı oxuya-oxuya üzüklərdən birini sudan çıxarar. Niyyət yaxşı olrsa, bir yerdə şad sözlər eşidərlər. Burada üzüyün məhz suyun içərisinə salınaraq niyyət tutulması, insanın ən həssas duyğularını, ailə qurmaq məsələləri ilə bağlı gələcək planlarını, arzularını su ilə bölüşməsi anlamına gəlir. (5.327-331.)
Suyun ilkinliyi, əzəli substansiya kimi təsvirinə qədim şərq xalqlarının mifologiyasında geniş surətdə rast gəlinir. Məşhur tarixçi S.Kramerə görə, səma Allahı İnanna bacısı Ereşgiqalın idarə etdiyi yeraltı aləmi özünə tabe etdirmək üçün oraya enir. Lakin yeraltı aləmin öz qanunları

vardır. Buraya bir dəfə enən bir daha geriyə dönmür. Yeraltı aləmdə anunakilərin zəhmli baxışları altında cansız bir hala düşən İnannanı digər tanrılar çətinliklə xilas edirlər. Başlıcası isə, müdriklik Allahı İnannanın üzərinə 60 dəfə dirilik suyunu çiləməyi əmr edir. Məhz "dirilik suyu"nun ecaz təsiri ilə İnanna yenidən həyata qayıdır. Deməli su burada həyatın başlanğıcı, həm səmada, həm də yerdə mövcudluğun ilkin və zəruri şərti, obyektiv səbəbi kimi çıxış edir (7.122-160).

Şumerlərin Nammu (mənası dəniz deməkdir. – A.M.) Allahı "səmanı və torpağı doğan ana" kimi təsvir edilir. Təsadüfi deyildir ki, su ilə bağlı inanc və ayinlərimiz həmişə daş (daş həm də, torpaq, yer anlamına uyğun gəlir. – A.M.) ayinləri ilə sıx şəkildə bağlı olmuşdur. Ulu əcdadlarımızın islamaqədərki ayinlərində müqəddəs ziyarətgahlardan övlad diləmə ilə bağlı mərasim və adətlərində öz evlərinə pirlərdən daşlar gətirərək qoruyub saxlamaq, onlara tapınmaq adətləri də mövcud olmuşdur.

Axır çərşənbə günü qız və gəlinlər sübh tezdən bulağa suya gedərlər və heç bir söz demədən lal suyu evlərinə gətirərdilər. Yəqin ki, bu adət, suyun informasiyanı özündə saxlaması, daşıması inancı ilə bağlı olmuşdur. Axı su, ailə qurmaq istəyən subay oğlan və qızların ən yaxın sirdaşıdır. Ərə getmək istəyən qızlar bu işin tez həyata keçməsi üçün niyyət tutub iki əllərinin baş barmaqlarını iplə bağlayar, suyun üstündən bir neçə dəfə tullandıqdan sonra, ipi kəsib suya atardılar ki, bəxtləri açılsın.

Axır çərşənbə bayramlarında insanlar dan yeri ağaran kimi bulağa gedər, yeni su götürər, əl-üzlərini yuyar, suyun üstündən atlanardılar: "...Bulağa suya gedənlər sənəyin dibinə yeddi balaca daş salardılar. Daş bulağın gözündən götürülərdi". (2.253) Kişilər isə, üç böyürtkən qanadı qırıb evə gətirər və astanasına keçirərdilər: "Sənəyə salınan yeddi daş və qapının başına, astanasına vurulan böyürtkən ağacı o biri Axır çərşənbə bayramına qədər qalar. Gələn Axır çərşənbədə onu yenisi ilə əvəz edərdilər". (2.253) Bu qədim mərasimdə su, ailənin bəd və şər qüvvələrdən qoruyucusu kimi də çıxış edir.

Təbii ki, burada daşın bulağın gözündən götürülməsi ayini su və daşın, torpağın, bir-biri ilə sıx vəhdətinə, təbii və qırılmaz əlaqələrinə olan inamdan irəli gəlir. Ailəni, nəsil artımını ərzaq ehtiyatı toplamadan təsəvvür etmək çətindir. Görkəmli Azərbaycan alimi və mütəfəkkiri Nəsrəddin Tusi "Əxlaqi-Nasiri" əsərində ailənin quruluşu məsələsindən bəhs edərkən ərzaq ehtiyatını, azuqəni də mənzilin rüknləri, elementləri, yaxud üzvləri sırasına daxil edir. Belə ki, onun fikrincə mənzilin rüknləri, yaxud ailənin üzvləri beşdir: ata, ana, övlad, xidmətçi və azuqə. Deməli, ailədaxili münasibətlərin, gələcək nəslin, o cümlədən, ailə modelinin qorunub saxlanılması üçün ərzaq təhlükəsizliyinin təmin olunması, maddi bazasının yaradılması, ən zəruri şərtlərdən biridir. (6.124)

Nəzərə alsaq ki, ən qədim çağlardan üzü bəri maddi nemətlərin əldə olunmasının əsas mənbəyi əkinçilik və maldarlıq olmuşdur, o zaman insanların torpağın suvarılması ilə bağlı qayğılarını təsəvvür etmək çətin deyildir. Əkin sahələrini suvarmadan bol məhsula ümid az, əhalinin təbii artımına maneələr törədən qıtlığın, aclıq təhlükəsinin baş verə bilməsi ehtimalı isə çox idi: "Arxaik inama görə, ...yağış yağdırmaq məqsədi ilə, pirdən daş gətirər və onu suya atardılar, uzun sürən yağışların kəsilməsi üçün isə, həmin daşı sudan çıxarıb oda atardılar". (1.412)

Bu ayində də, su, aclığın, qaranlığın və qışın düşməni, yazın, nəsil artımının isə hamisi kimi çıxış edir. Suyun bu funksiyası, Azərbaycan xalqının kövsəc adlanan qədim mərasimində də, öz əksini tapmışdır. Xalqımız bu mərasimi əsasən noyabrda - qırov düşən ayda icra edərmiş: "Özünü gülməli kökə salmış bir nəfəri təlxək geyimində qatıra mindirər, sonra da kəndi gəzdirib camaata deyirdilər ki, bu gördüyünüz adam qışın düşmənidir. Yan-yörədəkilər onun üstünə su səpir, qar atır, ətrafında məzəli oyun və əyləncələr göstərirdilər". (1.530) Qatırın üstünə oturdulmuş adam bir əlində tükü yonulmuş qarğa, o biri əlində isə yelpik tutub yelləyərək

"istidir, istidir, heç vecimə deyil" – deyə, hay-küy salırmış. Təbii ki, burada doğa bilməyən, nəsil verməyən qatır, tükü yonulmuş qarğa qışı, qaranlığı, aclıq və soyuğu simvolizə edirlər. Bəs nə üçün üstünə su səpilən insan "mənə soyuq deyil" – deyə, söyləyir? O, bu gücü, enerjini haradan alır? Təbii ki, üstünə səpilən sudan! Sanki, burada su, təbiətə, insanlara həyat eşqi, enerjisi bəxş edən "dirilik suyu" kimi çıxış edir.

Su, insanların həyatla bağlı təsəvvürlərində qədim çağlardan üzü bəri, ən mühüm dəyərə malikdir. "Sucan ömrün olsun!", "filankəsin canı hələ suludur" deyimləri bu müqəddəs və əvəzolunmaz təbii nemətin demoqrafik proseslərin baş verməsində nə qədər mühüm rol oynadığını aydın şəkildə göstərir.

**Ədəbiyyat:**


1. Azərbaycan etnoqrafiyası. Üç cilddə.C.3. Bakı : Şərq-Qərb, 2007, 568 s.
2. Azərbaycan folkloru antologiyası. Bakı : Azərb.SSR EA nəşr-tı, 1968, 288 s.
3. Azərbaycan mifoloji mətnləri. Bakı : Elm, 1988, 196 s.
4. Cəfərov Ə. Quruçay dərəsində. Bakı : Azərnəşr, 1990, 64 s.
5. Məmmədov A. Xalqımızın novruz bayramı ilə bağlı inancları //Tarix və onun problemləri jurnalı. Bakı, 2016, № 2.
6. Məmmədov A. Tarixi demoqrafiya. Bakı : ADMİU, 2019, 231 s.
7. Крамер С.Н. Мифология Шумера и Аккада. Мифология древнего мира. М. : Наука, 1977, 402 с.
8. Кун Н.А. Боги древней Греции. М. : Панорама, 1992, 64 с.
9. Философский энциклопедический словарь. М. : «Сов. энциклопедия», 1989, 814 с.
10. Чунакова О.М. Пехлевийский словарь. М. : «Вост. лит-ра» РАН, 2004, 286 с.


***Айдын Мамедов***

## ИСТОРИКО-ДЕМОГРАФИЧЕСКИЕ ВЗГЛЯДЫ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА В ДРЕВНИХ ВЕРОВАНИЯХ, ОБЫЧАЯХ И ОБРЯДАХ, СВЯЗАННЫХ С ВОДОЙ


Вода является основой жизни на Земле. На самом деле жизнь возникла из воды, ею она и поддерживается. О роли воды в жизни человечества написано уже немало, но люди все еще разгадывают ее тайны. Вода дается нам от природы: где-то щедро, где-то этого недостаточно, но все знают о значении воды для жизни.

Азербайджан имеет свои собственные верования и обычаи, связанные с водой. Когда приходит день весеннего равноденствия, согласно древним верованиям азербайджанцев, вода, собранная в этот день, воздействует на демографические процессы, усиливает любовь и общение между одинокими людьми и приносит семейную радость тем, кто ею моется.

Последний день старого и первый  день нового года - один из самых любимых и долгожданных праздников в Азербайджане, подготовка к которому начинается задолго до праздника. В эти дни с утра проводятся праздничные мероприятия, связанные с водой. После ритуального умывания проходят народные гулянья с участием всех жителей деревни с танцами, играми и угощениями - традиционными сладостями, орехами, медом, шербетом, сухофруктами. Таким образом, древние верования и обычаи наших предков, связанные с водой, тесно связаны с историческими и демографическими взглядами азербайджанцев.


**Ключевые слова:** *водные верования, древние обычаи и обряды, рост населения, народонаселение, демографические взгляды.*

## HİSTORİCO-DEMOGRAPHİC VİEWS OF THE AZERBAİJANİ PEOPLE İN ANCİENT BELİEFS, CUSTOMS AND RİTUALS ASSOCİATED WİTH WATER

Water is the foundation of life on Earth. Actually, life arose from water, and it is supported by it. A lot has already been written about the role of water in the life of mankind, but man still unravels its secrets. Water is given to us by nature: somewhere generously, somewhere it is not enough, but everyone knows the significance of water for life.

Azerbaijan has its own beliefs and customs associated with water; it passes the day of the vernal equinox. According to the ancient belief of Azerbaijanis, the water collected from the spring that day acts on demographic processes, enhancing love and communication between single people and brings family joy to those who wash it. Therefore, in the morning, young girls with water vessels go to the source.

And the people, in order to facilitate the lives of their children, newborn babies and expedite their marriage, single weddings cleaned their foci with new water. The last day of the old year and the new day is one of the most beloved and long-awaited holidays in Azerbaijan, preparation for which begins long before the holiday. On this day, in the morning, a festive event in honor of water is held. After ritual washing, festivities are held with the participation of all residents of the village, with dances, games and treats - traditional sweets, nuts, honey, sorbet, and dried fruits. Thus, the ancient beliefs and customs of our ancestors associated with water are strongly associated with the historical and demographic views of Azerbaijanis.

**Key words:** *water beliefs, ancient customs and rites, population growth, population settlement, demographic views.*

BDU-nun “Mənbəşünaslıq, tarixşünaslıq və metodika” kafedrasının 12 fevral 2019-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür. (Pr.№5).
Rəyçilər : t.e.d. A.İsgəndərov, t.e.d. T.Həsənzadə:

Redaksiyaya daxil olma tarixi: 09.07.2019.
Çapa qəbul olunma tarixi: 17.08.2019

Tarix elmləri doktoru **Tahirə Həsənzadə**
tərəfindən çapa tövsiyə olunmuşdur.